*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 148-154* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.148*

# Hüseyn Cavid və Əbdülhaq Hamidin dramaturgiyasında İblis obrazı

**Radə Abbasova**
AMEA Folklor İnstitutu
E-mail: irada.abbasova61@gmail.com

**Annotasiya.** Şəri təmsil edən obrazların ümumiləşmiş şəkli, əsasən, İblis obrazıdır. İblis obrazı Dantenin "İlahi komediya"sında, Hötenin "Faust" əsərində, Con Miltonun "İtirilmiş Cənnət" və "Qaytarılmış Cənnət" poemalarında, həmçinin Uilyam Bleykin poeziyasında təsvir edilmişdir. Türkiyə romantizminin görkəmli nümayəndəsi olan Əbdülhaq Hamid də "Yadigari-hərb" əsərində şəri, İblisi təmsil edən Pəriyi-hərb obrazını qələmə almışdır. İblis obrazı milli romantik ədəbiyyatımızda da müraciət olunan obrazlardan biri olmuşdur. Milli romantizm ədəbiyyatımızın görkəmli nümayəndələri olan A.Şaiq və H.Cavid də İblis obrazına əsər həsr etmişlər. Tədqiqatda H.Cavidin və Ə.Hamidin dramaturgiyalarında İblis obrazının poetik-semantik xüsusiyyətləri müqayisəli şəkildə araşdırılmışdır. Müqayisəli araşdırmalar nəticəsində H.Cavidin "İblis" əsəri ilə eyni missiyalı obrazları özündə əks etdirən əsərlər arasında müəyyən oxşarlıqların, eyni zamanda fərqlərin olduğu aşkar edilmişdir. Lakin etiraf etmək lazımdır ki, H.Cavidin "İblis" əsəri sözügedən obrazın XX əsr yazıçılarının əsərlərində əks olunan ən mükəmməl nümunəsidir. İblis surətlərinin demək olar ki, heç biri sənətkarlıq və bədii təsir qüvvəsi etibarilə H.Cavidin "İblis" faciəsindəki surətlə müqayisə edilə bilməz.
**Açar sözlər:** mifologiya, Şeytan, İblis, romantizm, H.Cavid, Ə.Hamid, "Yadigari-Hərb"

**Məqalə tarixçəsi:** göndərilib – 03.04.2024; qəbul edilib – 19.04.2024

# Character of the devil in the dramaturgy of Huseyn Javid and Abdulhag Hamid

**Rada Abbasova**
Institute of Folklore of ANAS
E-mail: irada.abbasova61@gmail.com

**Abstract.** A common image of characters representing devil is mainly the character of the Devil. The image of the devil is described in Dante's "Divine Comedy", Goethe's "Faust", John Milto's poems "Paradise Lost" and "Paradise Regained", as well as William Blake's poetry. Abdulhag Hamid, a prominent representative of Turkish romanticism, wrote the image of Pariyi-harb, representing evil and the Devil, in his work "Yadigari-harb". The image of the devil has been one of the images addressed in our national romantic literature. A.Shaig and H.Javid, prominent representatives of our national romantic literature, have also dedicated works to the image of Iblis. In the study, the poetic-semantic features of the image of Iblis in the works of H.Javid and A.Hamid was investigated in a comparative way. As a result of comparative studies, it was found that there are certain similarities and differences between H.Javid's work "Iblis" ("The Devil") and the works that contain the same missionary images. However, it is necessary to admit that H.Javid's work "Iblis" is the most perfect example of the mentioned image reflected in the works of 20th century writers. Almost none of the images of Iblis can be compared with the image in H. Javid's tragedy "Iblis" in terms of craftsmanship and artistic influence.
**Keywords:** mythology, Devil, romanticism, H.Javid, A.Hamid, "Yadigari-Harb"

**Article history:** received – 03.04.2024; accepted − 19.04.2024

## Giriş / *Introduction*

Xeyirlə şərin mübarizəsi bəşəri problem olmaqla hər zaman aktual olmuşdur. Hələ ən qədim zamanlardan mifoji mətnlərdə, həmçinin folklorda, daha sonra dini mənbələrdə, nəhayət, bədii ədəbiyyatda müxtəlif obrazların simasında daim xeyir və şərin mübarizəsi öz əksini tapmışdır. Türkiyə romantizminin görkəmli nümayəndəsi olan Əbdülhaq Hamid də "Yadigari-hərb" əsərində şəri, İblisi təmsil edən Pəriyi-hərb obrazını qələmə almışdır. İblis obrazı milli romantik ədəbiyyatımızda da müraciət olunan obrazlardan biri olmuşdur. Milli romantizm ədəbiyyatımızın görkəmli nümayəndələri olan A.Şaiq və H.Cavid də İblis obrazına əsər həsr etmişlər. Tədqiqatda H.Cavidin və Ə.Hamidin dramaturgiyalarında İblis obrazının poetik-semantik xüsusiyyətləri müqayisəli şəkildə araşdırılacaqdır. Müqayisəli araşdırmalar nəticəsində H.Cavidin "İblis" əsəri ilə eyni missiyalı obrazları özündə əks etdirən əsərlər arasında müəyyən oxşarlıqların, eyni zamanda fərqlərin olduğu aşkar edilmişdir. Lakin etiraf etmək lazımdır ki, H.Cavidin "İblis" əsəri sözügedən obrazın XX əsr yazıçılarının əsərlərində əks olunan ən mükəmməl nümunəsidir. İblis surətlərinin demək olar ki, heç biri sənətkarlıq və bədii təsir qüvvəsi etibarilə H.Cavidin "İblis" faciəsindəki surətlə müqayisə edilə bilməz.

## Əsas hissə / *Main Part*

Qədim Misir mifoloji mətnlərində şəri təmsil edən Setlə xeyirxahlığı, təbiəti himayə edən Oziris arasında gedən mübarizəni əks etdirən xeyli sayda mif mətnləri mövcud olmuşdur. Həmin mətnlərdə göstərilir ki, Setin hakim olduğu ərazilərdə daim quraqlıq hökm sürür, burada yalnız boş səhralar, çılpaq qayalıqlar var. Ozirisin ərazilərində isə hamı firavan yaşayır. Bütün torpaqlar məhsuldar və bərəkətlidir. Bu mətnlərdə o da qeyd edilir ki, Ozirislə Setin mübarizəsi nəticəsində Ozirisin ölümündən sonra hər şey dəyişir, münbit və bərəkətli torpaqları səhralar əvəz edir, aclıq və ölüm baş alıb gedir [1, s.63].

Alman-Skandinav miflərində isə Asqardda yaşayan on iki tanrıdan əlavə, on üçüncü tanrı Loki şəri təmsil edir. "Loki ilk dövrlərdə sadəcə olaraq alov tanrısı kimi bilinsə də, sonradan daha çox mənfi xarakter alaraq pislik və hiyləgərlik tanrısı kimi tanınmışdır" [18]. O, insanları pis işlər görməyə, müharibələr aparmağa, qan tökməyə, biri-birinə xəyanət etməyə təşviq edir.

Məlumdur ki, xeyirlə şərin mübarizəsini əks etdirən dini-mifoloji sistemlərdən biri də Zərdüştilik olmuşdur. Xeyir allahı Hörmüz ilə şər allahı Əhrimənin qarşıdurmasından bəhs edən zərdüştiliyin kitabı olan "Avesta"da hətta şər işləri həyata keçirmək üçün Əhrimənin köməkçilərinin olduğu da qeyd olunur [1, s.192].

Qədim türk mifoloji mətnlərində də şər işləri himayə edən varlıq kimi, əsasən Erliyin adının keçdiyini müşahidə edirik. Demək olar ki, əksər Altay dastanlarında rast gəlinən Erlik və onun köməkçiləri qəhrəmanın qarşısına çıxır və onu məğlub etməyə çalışırlar. "Qəhrəmana qarşı mübarizə aparan Erliyin uşaqları, nəvələri və digər köməkçilər – ucubələr (qorxunc varlıqlar) şəklində təsvir edilirlər" [14, s.6].

Dünyanın yaranması haqqında olan qədim Altay dastanında Erliyin Tanrı Qara xan tərəfindən yaradılması, yaradıldığı vaxtdan isə şər işlərlə məşğul olması haqqında informasiyalar öz əksini tapır [9, s.572].

Şeytanın yaradılışı, eyni zamanda onun davranışlarının əks olunduğu bir sıra Azərbaycan mifoloji mətnləri vardır [8, s.15]. "Kitabi-Dədə Qorqud" dastanında da Şeytan haqqında məlumat öz əksini tapmışdır: "Ucalardan ucasan, Uca Tanrı! Kimsə bilməz necəsən, gözəl Tanrı! Sən Adəmə tac verdin, Şeytana lənət etdin. Bir günahdan ötrü qapından qovdun" [7, s.207].

Şeytan sözü ilə yanaşı istifadə edilən "iblis" sözü bir qisim dilçilərin fikrincə, "ümid kəsmək, peşman olmaq, söyləyəcəyi bir şey olmayıb, çaşıb qalmaq" anlamını ifadə edən iblas kökündən törəmişdir. "Qərb dilçiləri arasında yayılmış fikirlərdən biri isə budur ki, iblis sözü "ən böyük şeytan" mənasını ifadə edən yunan dilindəki Diabolos sözündən ərəb dilinə keçmişdir" [16, s.99-101].

C.Bəydili Şeytan barəsində yazır: "Şeytan – gözə görünməyən demonik varlıqdır... Bəzən də İblis deyilən bu ruh adamları həmişə natəmiz işlərə sürüklər. Türk düşüncəsinə görə, övliyaların, müqəddəslərin olmadığı yerə şeytan gələr ki, o zaman da həmin yerdə çirkinlik, yamanlıq və şər ruh hakim olar" [2, s.233].

Xristianlıqda Şeytanın əməllərinə aid qeyd edilir ki, Şeytan (və ya Satana) Allaha qarşı üsyan etmiş və Cənnətdən qovulmuş, buna baxmayaraq, Allah ona ardıcılları və çoxlu sayda - əcinnələr ordusu üzərində hökm sürməyə icazə vermişdir. O, "insanı yoldan çıxararaq günah işləməyə və ya yalan danışmağa sövq edən varlıqdır" [17].

Quranda isə Şeytan haqqında qeyd edilir ki, alovdan yaradılmış olan və İblis adı ilə də tanınan Şeytan, özündən sonra yaradılmış Adəmə boyun əyməkdən imtina etdiyinə görə, Cənnətdən qovulmuşdur və o, bundan sonra insanlara təsir edərək onları günah işlər görməyə sövq edir [17].

Quranda Şeytanla bağlı xüsusi ayələr vardır:

"Ey Adəm övladları! Şeytan sizin ata-ananızı Cənnətdən çıxardıb ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurduğu kimi, sizi də aldatmasın. O və onun dəstəsi sizi, onları görmədiyiniz yerdən görürlər. Həqiqətən, Biz şeytanları iman gətirməyənlərin dostları etdik" [10, s.233].

"O zaman biz mələklərə: "Adəmə səcdə edin!", – dedikdə, onlar səcdə etdilər, tək İblisdən başqa. O, üz çevirdi, təkəbbür göstərərək imtina etdi və kafirlərdən oldu" [10, s.34].

Nəzər salınan nümunələrdən belə bir qənaət əldə olunur ki, Şeytan obrazı haqqında olan mif mətnləri, folklor nümunələri, eləcə də dini kitablarda öz əksini tapan informasiyalar demək olar ki, məzmun baxımından eyniyyət təşkil etməkdədir [11, s.195].

Xeyir və şərin mücadiləsini hərb mələyi və sülh mələyinin simasında təsvir etməklə gözəl bədii sənət nümunəsi yaradan sənətkarlardan biri də Türkiyə romantik ədəbiyyatının görkəmli nümayəndəsi olan Ə.Hamiddir. Ədib "Yadigari-hərb" əsərində şəri, İblisi təmsil edən Pəriyi-hərb, xeyiri təmsil edən Pəriyi-sülh obrazlarını qələmə almışdır. "Yadigari-hərb" əsərinin mövzusunu I Dünya müharibəsi və eyni zamanda Osmanlı dövlətinin istiqlal mücadiləsi təşkil etməkdədir. Əsərdə müharibənin fonunda eyni zamanda iki gəncin – Osmanlı zabiti çərkəz Osmanla rus generalının qızı arasında olan sevgi də təsvir olunmaqdadır. Qeyd olunduğu kimi, dram əsərində mifoloji obrazlar yer almışdır. Bu, Pəriyi-Vətən, Pəriyi-sülh, Pəriyi-hərb obrazlarıdır.

Pəri obrazları arasında əsas obraz Pəriyi-Vətən obrazıdır. Pəriyi-Vətən obrazı adından göründüyü kimi, Vətəni simvolizə etməkdədir. Bu obrazla əsərin elə ilk səhnəsində qarşılaşırıq. Əsər bir sıra surətlərin Pəriyi-Vətənə olan sevgilərini izhar etmələri ilə başlayır və bununla da həmin obrazın mükəmməl portreti çəkilir. Məktəbli uşaqların, həmçinin yaşlı insanların dilindən Pəriyi-Vətənə, yəni elə əslində Vətənə olan sevginin onlara ta körpəlikdən təlqin edilməyə başlandığı qeyd edilir.

Qeyd olunduğu kimi, əsərdə iştirak edən mifoloji obrazlar arasında Pəriyi-sülh, Pəriyi-hərb obrazları, adlarından məlum olduğu kimi, biri sülhü himayə və təbliğ edən, digəri isə hərbi, müharibəni himayə və tərənnüm etməkdədir. Pəriyi-hərb obrazının Pəriyi-sülh və Pəriyi-Vətən obrazları ilə dialoquna və ümumiyyətlə, əsər boyu sərgilədiyi davranışlarına nəzər saldıqda bu obraz bizə, heç şübhəsiz, H.Cavidin "İblis" əsərindəki İblis obrazını xatırladır. Əsərdə Pəriyi-Vətən obrazı Pəriyi-sülhlə Pəriyi-hərbi barışdırmaq üçün onlara ortaq məxrəcə gəlməyi təklif edərkən, maraqlı bir dialoq meydana çıxır:

"***Peri-i Vatan*** *(ikisinin ortasında):* Ben ki Osmanlı ülkesinin perisiyim, harp ve sulh müvekkilelerini bu Romanya toprağında bir-birine mukarin görmekle münşerih olmak istiyorum. Acep aranızda itiläf ile dost olarak ayrılmak için bir mukavele, yahut müzakere väki olundu mu?

***Peri-i Harb:*** Ben ki müvekkile-i harbim, henüz vazifemi tamamiyle ifa etmedim. Romanya harabelerinde ifa edebileceğimi de ummuyorum. Çünkü benim vazifem umumen insanları harben tasfiye etmektir.

***Peri-i Sulh:*** Ben ki mümessile-i sulhum, benim de vazifem harb-i umurriiyi imhä ile insanları islah etmektir; bu toprakta muvaffak olamayacağımı hissediyorum. Sen git de vazifeni Süveyş kanalında ikmal et; zira onun mälike-i mühlikesi bulunan timsah-ı menhusu doyurmak içindir ki, bugün karqa ve ya horozlar kartallarla pençeleşmeğe, kurt ve ya ayılar arslanlarla boğuşmağa mecbur oldular; ve birtakım yecücler de devlerle güleşmeğe kendilerinde cesaret buldular!.. Sen oraya git de yamyamların insan yediklerini seyret...

***Peri-i Harb:*** Sen de Bahr-ı Siyah ile Bahr-ı Sefid boğazlarında täli'ini tecrübe etmeğe git!.." [13, s.307].

Göründüyü kimi, Sülh pərisi ilə Hərb pərisini barışdırmaq istəyən Vətən pərisinə cavab olaraq Hərb pərisi "mənim vəzifəm ümumən insanları hərblə arıtlamaq, təmizləməkdir", Sülh pərisi isə "mən ki sülhün himayəçisiyəm, mənim də vəzifəm hərbi ləğv etməklə insanları islah etməkdir", – deyir. Və hər ikisi bir-birini hazırda cəng meydanı olan Rumıniya ərazisindən qovmağa çalışır. Aralarında sürən bu uzun mübahisədən sonra Pəriyi-Sülh son sözünü deyir və buradan ayrılır.

Ə.Hamidin "Yadigari-hərb" əsərində maraq doğuran cəhətlərdən biri odur ki, ədib birmənalı şəkildə sülhü dəstəkləmir. "Bəzən sülh üçün hərb edilir...", – deyən ədib bəzi hallarda dünyada müəyyən bir nizam, eyni zamanda sülh yaratmaq üçün müharibənin, hərbin qaçılmaz olduğunu bildirir. Və hətta o xəstəxana otağından gələn zarıma, inilti səslərini də ədib zəfər təranəsi adlandırır, o otaqda olanları cəngavərlər və müqəddəslər hesab edir.

İnci Enginün ədibin bu ikili mövqeyi ilə bağlı yazır: "Hərb Pərisi vəzifəsinin "ümumen insanları harben tasfiye etmek" olduğunu söyləyir. Hamidin savaş əleyhdarlığı burada da görünür. Ancaq vətənin qorunması söz konusu olduqda savaşın səbəb olduğu faciələrdə də bir müqəddəslik bulunmaqdadır. Vətən Pərisi – Hamidin sözcüsü kimi tərəddüdlüdür – hər iki tərəfdə də bulunmaq istər" [15, s.18].

Fikrimizcə, bu düşüncə (sülh üçün hərb edilir) Cavidin "İblis"ində Ariflə İbn Yəminin dialoqunda İbn Yəminin dilindən səslənən: "Yaşamaq istiyormusun, çarpış. // Hərbə qoş, həp vuruş, ya əz, ya əzil!" [3, s.18] fikirlərinə uyğun gəlir.

Qeyd olunduğu kimi, Avropa ədəbiyyatında İblis obrazına dəfələrlə müraciət olunmuşdur. Eyni zamanda Azərbaycan romantik ədəbiyyatında da İblis obrazının əks olunduğu bir sıra əsərlər vardır. İlk belə nümunələrdən biri Abdulla Şaiqin "İblisin hüzurunda" hekayəsidir [12].

Bütün bu deyilənlər, təbii ki, yazıçının cəmiyyətdə baş alıb gedən mənəvi aşınmalara, deqredasiyaya, insanlar arasındakı nifaqlara, xəyanətlərə, mal-mülk hərisliyinə, müharibələrə və s. kimi naqisliklərə iblis xislətli insanların səbəb olduğu qənaətinə aid obrazlı münasibətidir. Bənzər məzmun və qənaətləri H.Cavidin "İblis"dramında da müşahidə edirik.

Romantizm ədəbiyyatının görkəmli nümayəndəsi olan H.Cavid də İblis obrazına müraciət edərək mükəmməl bir dram əsəri ərsəyə gətirmişdir. Akademik M.Kazımoğlu H.Cavidin mifoloji obrazlar olan İblis və Mələk obrazlarını yaradıcılığında əks etdirməsi ilə bağlı yazır: "H.Cavid bir romantik sənətkar kimi, O dünya ilə bağlı mifoloji təsəvvürü təsadüfdən-təsadüfə yox, ardıcıl olaraq nəzərə alır və bir sıra əsərlərində, ən çox da pyeslərində mifoloji obrazlara geniş yer verir. H.Cavidin ideal həqiqət axtaran və dərin daxili tərəddüd, təbəddülat içində çırpınan qəhrəmanları sövq-təbii mistik aləmə qapılmalı, İblis və Mələyin tərəf-müqabilinə çevrilməli olurlar" [6, s.28-29].

Ə.İbadoğlu bu əsərin yüksək sənətkarlıq səviyyəsi barədə yazır: "XX əsr yazıçılarının əsərlərində ara-sıra rast gəldiyimiz şərti İblis surətlərinin heç biri sənətkarlıq və bədii təsir qüvvəsi etibarilə H.Cavidin "İblis" faciəsindəki surətlə müqayisə edilə bilməz" [4, s.32-33]. Professor K.Əliyevə görə, "H.Cavidin "İblis" faciəsi ilə bu mövzu Azərbaycan ədəbiyyatında özünün yüksək bədii həllini tapdı" [5, s.120].

H.Cavidin "İblis" əsərində hadisələr I Dünya müharibəsi fonunda cərəyan edir. Əsərin əvvəlindən biz baş verən hadisələrə, müharibəyə, tökülən nahaq qanlara İblis və Mələyin münasibətini müşahidə edirik:

***İblis***
*(məmnun qəhqəhələrlə)*

Dəryalərə hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan,
Sellər kibi aqmaqda qızıl qan,
Canlar yaqar, evlər yıqar insan... [3, s.8]

***Mələk***
Ya Rəb, bu nə dəhşət, nə fəlakət?
Ya Rəb, bu nə vəhşət, nə zəlalət?
Yoq kimsədə insafü mürüvvət,
İblisəmi uymuş bəşəriyyət? [3, s.8]

***İblis***
Toplar veriyor aləmə dəhşət,
Dəhşət!..Qopuyor sanki qiyamət,
Yağmur kibi göydən yağar atəş!
Atəş!.. Qaralar, dalğalar atəş!.. [3, s.9]

***Mələk***
Ya Rəb, azacıq lütfü inayət!
Qəhr olmada artıq bəşəriyyət.
Başdan-başa həp yer yüzü vəhşət,
İblis ilə həmrəngi-siyasət. [3, s.9]

Göründüyü kimi, elə əsərin əvvəlindən müharibə səhnələrinə, sellər kimi axmaqda olan qızıl qana İblisin məmnun qəhqəhələrlə sevindiyinin, mələyin isə baş verən hadisələri dəhşət, vəhşət, fəlakət adlandırdığının, bəşəriyyətin qəhr olmasına narahat münasibətinin, Allahtaaladan lütfü-inayət dilədiyinin şahidi oluruq.

Əsərdə İblis yaradılarkən mələk olduğunu, atəşdən xəlq edildiyini, əvvəllər Allaha itaət etdiyini, lakin sonra Adəmlə bağlı məlum hadisədən sonra Allahdan üz çevirdiyini, onunla rəqib olduğunu, ixtilaf etdiyini, “şöhrət-şanının” daha da artdığını, Allaha əks qüvvə kimi zikr edildiyindən məmnunluq duyduğunu qeyd edir.

Ariflə mükalimə edən İblis onu öz tərəfinə çəkməyə, özünə tabe etməyə çalışır, ona məqsədinə çatmaq üçün var-dövlət, qızıl, pul və silah təklif edir. Arif buna etiraz edərkən isə İblis ona belə deyir:

Dahilər, ululəzm nəbilər belə bəndən
Hiç vəchlə təxlisi-giriban edəməzkən
Daim bəni təhqir edərək əyləniyorsun...
İblis, o böyük qüdrət, o atəşli müəmma
Bir gün səni də kəndinə eylər kölə... amma
Heyhat, olamaz dərdinə bir kimsədən imdad...
Yüz, min deyil İblisə uyan... həp bəşəriyyət
Etmiş bu gün ev yıqmağa, qan içməyə adət.
[3, s.11-12]

Biz İblisin dilindən eşidirik ki, İblissiz də artıq cəmiyyətdə iblisxislətli insanlar vardır ki, onlar atəş savuran krallar, şahlar, çılğın dərəbəglər, qızıl, qadın düşkünü olan insanlardır və onlar insan cəmiyyətini, qəhr etməyə, məhv etməyə yetərlidirlər. Nəhayət, əsərin sonunda Arifin özünün də İblisin toruna düşdüyünü, onun qurbanına çevrildiyini görürük. Əgər əvvəllər Arif:

“En, gəl bana, yaxud bəni yüksəklərə qaldır,
Gəzdir qonağında;
Yerlərdə süründüm yetişir, göylərə qaldır,
Dindir qucağında,
Qaldır bəni, bir seyr edəyim xoşmu, gözəlmi
Cənnətdə,
mələklər?...
İnsanları xəlq etmədə var bəlkə də hikmət,
İblisə nə hacət?!”
[3, s.10]

– deyə Allaha xitab edirdisə və ya müharibə, səhneyi-hərb barədə İbn Yəminlə mükalimə edərkən ona:

“Bir fəzilətsə öldürüb-ölmək,
Canavar bizdən əşrəf olsa gərək” [3, s.18]

– deyir. Yaxud İblisin ona: “Bana ver könlünü...” [3, s.41] sözünə: “Əsla, əsla // Bunu hiç umma, saqın Arifdən... [3, s.41] cavabını verir. Və ya ona silah və altın təklif edən İblisə:

Dəf ol, yetişir, eyləmə əsla bəni təltif!
Möhtac deyil altına, ya qurşuna Arif.
[3, s.32]

– deyə etiraz edirdisə, əsərin sonunda artıq gözlər önündə tamam başqa bir Arif canlanmaqdadır, artıq o biri öz qardaşı olmaqla iki insanı (Xavər və Vasifi) qətlə yetirmiş bir qatildir.

## Nəticə / *Conclusion*

Xeyirlə şərin mübarizəsi bəşəri problem kimi bütün zamanlarda aktual olmuşdur. Mifoloji mətnlərdə, həmcinin folklorda, daha sonra dini mənbələrdə, nəhayət, bədii ədəbiyyatda müxtəlif obrazların simasında daim xeyir və şərin mübarizəsi öz əksini tapmışdır. Şəri təmsil edən obrazların ümumiləşmiş şəkli, əsasən, İblis obrazıdır. İblis obrazı Dantenin "İlahi komediya"-sında, Hötenin "Faust" əsərində, Con Miltonun "İtirilmiş Cənnət" və "Qaytarılmış Cənnət" poemalarında, həmçinin Uilyam Bleykin poeziyasında təsvir edilmişdir.

Böyük türk ədibi Ə.Hamid də "Yadigari-hərb" əsərində şəri, İblisi təmsil edən Pəriyi-hərb obrazını qələmə almışdır. İblis obrazı milli romantik ədəbiyyatımızda da müraciət olunan obrazlardan biri olmuşdur. Romantizm ədəbiyyatının görkəmli nümayəndələri olan A.Şaiq və H.Cavid də İblis obrazına əsər həsr etmişlər. Müqayisəli araşdırmalar nəticəsində H.Cavidin "İblis" əsəri ilə eyni missiyalı obrazları özündə əks etdirən əsərlər arasında müəyyən oxşarlıqların, eyni zamanda fərqlərin olduğu aşkar edilmişdir. Lakin etiraf etmək lazımdır ki, H.Cavidin "İblis" əsəri sözügedən obrazın XX əsr yazıçılarının əsərlərində əks olunan ən mükəmməl nümunələrindəndir. İblis surətlərinin demək olar ki, heç biri sənətkarlıq və bədii təsir qüvvəsi etibarilə H.Cavidin "İblis" faciəsindəki surətlə müqayisə edilə bilməz. Məlum olduğu kimi, H.Caviddən sonra milli ədəbiyyatımızda İblis mövzusuna müraciət edilməmişdir. Görünür, sözügedən obraza aid, ən azı, H.Cavid səviyyəsində əsər həsr edə bilməyəcəklərini dərk etmələri bu mövzuya müraciət etmək istəyən ədibləri bu fikirdən daşınmağa məcbur edən əsas səbəb olmuşdur.

## Ədəbiyyat / *References*

### *Azərbaycan dilində*

1. Ağbaba, A. Mifologiya. – Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2019. – 212 s.
2. Bəydili, C. Türk mifoloji sözlüyü. – Bakı: Elm. – 418 s.
3. Cavid, H. Əsərləri. 5 cilddə, III cild. – Bakı: Elm, 2007. – 368 s.
4. İbadoğlu, Ə. Hüseyn Cavidin "İblis" faciəsi. – Bakı: Azərnəşr, 1969. – 210 s.
5. Əliyev, K. Folklor kitabı. (Əsərləri 10 cilddə, VI cild). – Bakı: Elm və təhsil, 2019. – 432 s.
6. Kazımoğlu, M. Hər kaşanədə, viranədə İblis... "Hüseyn Cavid və mifoloji düşüncə" silsiləsindən birinci yazi. "525-ci qəzet", 2010.
7. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. – Bakı: Yazıçı, 1988. – 265 s.
8. Qarabağ: folklor da bir tarixdir. VI kitab. Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri / Topl. tərt. ed L.Vaqifqızı (Süleymanova). – Bakı: Zərdabi LTD MMC, 2013. – 468 s.
9. Quliyev, E. Türk xalqları ədəbiyyatı (təkmilləşdirilmiş və yenidən işlənilmiş 4-cü nəşr). – Bakı: Elm və təhsil, 2017. – 632 s.
10. Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. – Bakı: Azərnəşr, 1992. – 714 s.
11. Rzasoy, S. Şüurun inkişaf mərhələləri: mifoloji və tarixi şüur. – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, 2013, XLI kitab.
12. Şaiq, A. Əsərləri. I cild. – Bakı: Azərnəşr, 1966. – 193 s.

***Türk dilində***

13. Abdülhak Hämid Tarhan'in tiyatrolari - I. Sabru-Sebat / İçli kız / Liberte / Yadigär-ı Harb. Hazırlayan: İnci Enginün. – İstanbul: Dergah Yayınları, 1998. – 334 s.
14. Bekki, S. Maaday-Kara Destanı. – Manas Yayıncılık, Elazığ, 2007. – 589 s.
15. Enginün, İ. Sabru-Sebat, İçli Kiz, Liberte, Yädigär-i Harb hakkında. Abdülhak Hämid Tarhan'in tiyatrolari - I. Sabru-Sebat / İçli kız / Liberte / Yadigär-ı Harb. Hazırlayan: İnci Enginün. – İstanbul: Dergah Yayınları, 1998. – 334 s.
16. İslam Ansiklopedisi. 39. Cild. – İstanbul: TDV, 2010. – 521 s.

***İnternet resursları***

17. https://az.wikipedia.org/wiki/_Şeytan.
18. https://az.wikipedia.org/wiki/Loki

## Образ дьявола в драматургии Гусейна Джавида и Абдулхака Хамида

**Рада Аббасова**
Институт фольклора НАНА
E-mail: irada.abbasova61@gmail.com

**Резюме.** Среди распространенных образов, олицетворяющих зло, является в основном образ Дьявола. Образ дьявола есть в «Божественной комедии» Данте, «Фаусте» Гёте, в поэмах Джона Мильтона «Потерянный рай» и «Возвращенный рай», а также в поэзии Уильяма Блейка. Это описано у Абдулхака Хамида, видного представителя турецкого романтизма, написавшего образ Парийи-харб, олицетворяющий зло и Дьявола, в своем произведении «Ядигари-харб». Образ дьявола был одним из образов, к которым обращалась наша национальная романтическая литература. Образу Иблиса посвятили произведения видные представители нашей национальной романтической литературы А.Шаиг и Г.Джавид. В исследовании в сравнительном ключе будут исследованы поэтико-смысловые особенности образа Иблиса в инсценировках Г.Джавида и А.Хамида. В результате сравнительных исследований было установлено наличие определенных сходств и различий между произведением Г.Джавида «Иблис» и произведениями, содержащими такие же миссионерские образы. Однако следует признать, что произведение Г. Джавида «Иблис» является наиболее совершенным примером отражения упомянутого образа в произведениях писателей XX века. Почти ни один из образов Иблиса не может сравниться с образом в трагедии Г.Джавида «Иблис» по мастерству исполнения и художественному воздействию.
**Ключевые слова:** А.Хамид, Г.Джавид, романтизм, мифология, дьявол, «Ядигари-харб»